# «DİFAİ» FİRQƏSİ VƏ GƏNCƏNİN AZƏRBAYCANDA MİLLİ MÜCADİLƏNİN MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ TARİXİNƏ DAİR

**E.B.MURADƏLİYEVA**
*Bakı Dövlət Universiteti*

Başa çatmış XX yüzilliyə nəzər salarkən görürük ki, bu yüz ili fərqləndirən ən böyük cəhətlərdən biri, dağılmış imperatorluqların üzərində yeni müstəqil milli dövlətlərin meydana gəlməsidir.

Artıq XX yüzilliyin başlanğıcında Rus imperatorluğunun dağılması Türk və Müsəlman dünyasında ilk olaraq Cumhuriyyət elan olunması ilə başa çatdı. Bu, Azərbaycan Xalq Cumhuriyyəti idi. Onu yaradan şəxslər Azərbaycan türklərinin şərəfini xilas etdilər.

Bu tezisi əsaslandırmaq üçün yalnız bir faktı gətirmək kifayətdir: rus işğalı nəticəsində nəinki xalqın soyadı inkar edildi, həmçinin ölkənin adının – «Azərbaycan» məfhumunun rəsmi dövlət sənədlərində işlənməsi ləğv olundu və sonralar isə xəritələrdən də silindi. Bu vaxtdan Rusiyanın rəsmi sənədlərində, o cümlədən Rusiya və İran arasında bağlanmış (1813) və Türkmənçay (1828) müqavilələrində Azərbaycanın adı yox, keçmiş xanlıqların adları qeyd olunmuşdur. Yalnız 28 may 1918-ci ildə «Azərbaycan» adı dövlət anlayışı kimi Cumhuriyyət tərəfindən təsbit olundu. Məhəmməd Əmin Rəsulzadə 1925-ci ildə İstanbulda oxuduğu mühazirələr zamanı qeyd etmişdi: «Rusiya idarəsindəki (SSRİ – M.E) müsəlmanlara «türk» dedirtmək indi artıq qazanılmış bir davadır. Yalnız «türk» kəlməsi deyil, «Azərbaycan» adı da qazanılmışdır».[1]

Hətta Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra da «Azərbaycan» adı rəsmən mühafizə olundu. Azərbaycan Cumhuriyyəti mövcudluğunun tarixi əhəmiyyətindən biri də məhz bu faktdır. 27 aprel 1920-ci il istilası ilə dövlət faktiki müstəqilliyini itirsə də, Azərbaycan SSR kimi formal da olsa, müstəqil qaldı.

Bütövlükdə XIX və XX yüzilliklərin əvvəllərinə nəzər salarkən aydın olur ki, Azərbaycan Rusiya tərəfindən ayrı-ayrı xanlıqlar kimi işğal edilsə də, Rus imperatorluğunun dağılmasından sonra onun tərkibindən vahid vətən, vahid millət, vahid dövlət ideyası ilə çıxdı.[2] Amma buna qədər hələ çox işlər görülməli idi.

Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabinin açdıqları milli oya-

---

[1] Elmira Muradəliyeva. Azərbaycan milli şüurunun qatlarında Rusiya işğalı // Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar. M.Ə.Rəsulzadənin 120 illiyinə həsr olunmuş elmi konfransın materialları. Xəzər Universitəsi. Bakı, 2005, s.226.

[2] Geniş məlumat üçün bax: Cəmil Həsənli. Azərbaycanın ictimai-siyasi fikrində Ə.M.Topçubaşinin yeri. Böyük diplomat və görkəmli siyasi xadim Ə.M.Topçubaşinin anadan olmasının 135 illiyinə həsr olunmuş konfransın materialları, Bakı, 1998, s. 6-36; Cəmil Həsənli. Azərbaycanın XX əsr siyasi tarixinin dövrləşməsinə dair. Azərbaycanda ictimai-siyasi fikir. XX əsr, Konfransın əsərləri, Xəzər Universitəsi, Bakı, 1996, s.49-54.

nış dövrü yeni ziyalı zümrəsinin yetişib güclənməsinə təkan verdi. Ana dilində ilk qəzetlərin nəşrə başlaması, dünyəvi məktəblərin sayca artması, milli teatrın yaranması bu böyük tarixi prosesin başlanğıç mərhələsi idi. «Milləti bir yerə toplamaq», «milli hisslər» və s. ideyalar vətəndaşlıq hüququ qazanırdı. XIX əsrin 80-cı illərində nəşrə başlayan «Kəşkül» qəzeti ilk dəfə «Azərbaycan milləti» ifadəsini işlətmiş və bu ideyanı təbliğ etmişdir. Ümummüsəlman anlayışından çıxmaq, «əvvəlcə türk, sonra müsəlman» varlığını dərk etmək üçün hələ çox vaxt keçməli, çox işlər görülməli idi. Bunlar bütöv bir nəslin görəcəyi işlər idi.

O dövrün ən qüdrətli ziyalılarından və milli hərəkatın ilk carçılarından biri olan Həsən bəy Zərdabinin çıxardığı, özünün yazdığı kimi, «Rusiyada əvvəlinci türk qəzeti» - «Əkinçi» Azərbaycan həyatının ilk ensiklopediyası oldu. «Əkinçi» qəzeti dövrün bir çox ziyalısının milli düşüncələrini xarakterizə edən, türkçülük ideyasını ortaya çıxaran mətbuat orqanı idi. Həsən bəyin ortaya çıxardığı, millətin millət olaraq öz varlığını, birliyini yaratmaq məsələsi idi. Bu varlıq, birlik üçün iki başlıca şərt qarşıda dururdu – dilbirliyi və dinbirliyi. Həsən bəy yazırdı: «...Hər tayfa (millət mənasında – M.E) gərək iki şeyi bərk saxlasın ki, bu şeylər hər tayfanın dirəkləri hesab olunur və onların tayfa olmağına səbəbdirlər. Bu şeylərin birisi dil və birisi din və məzhəbdir. Elə ki, bunların birisi əldən getdi, tayfanın beli sınan kimidir. İkisi də gedəndə, tayfa qeyri-tayfalara qarışır, yox olur».[1]

1905-ci il Rus inqilabının başlanması fəal siyasi hərəkata keçmə dönəminə başlanğıç oldu. Rusiya Dövlət Dumasında Gəncədən olan millət vəkili İsmayıl bəy Ziyadxanoğlu demişdi: «Artıq bizim üçün də hərəkətə keçmə zamanı gəlmişdir, biz də bundan sonra susmamağa qərarlıyıq. Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir.... Sözün əsl mənasında, yüz il ərzində biz hökumətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Ölkəmiz istila edilən kimi dərhal milli varlığımıza təcavüz edildi . . . »[2]

1905-ci ilin may ayından başlayaraq Bakıda və Gəncədə çar hökumətinə təqdim etmək üçün Qafqaz müsəlmanlarının tələbləri hazırlandı. «Haqq ərizəsi» adlandırılan bu tələblər müsəlmanlara ruslarla eyni dərəcədə siyasi, mədəni və dini hüquq verilməsini, bütün dövlət idarələrində müsəlmanlara ruslarla bərabər işləmək və bütün müəssisələrə seçilmək hüququnun verilməsini və s. nəzərdə tuturdu. Tələblər baş nazir qraf Vitteyə verildi. Sonralar bu proqramın əsas bölmələri Dövlət Duması kürsüsündən ictimaiyyətə çatdırıldı.

Bununla yanaşı, milli hərəkat siyasi cəhətdən təşkilatlandı. «İttifaqi-müslimin», özünümüdafiə xarakterli «Difai»dən başlanan yol bütün Şərqdə ilk Avropa tipli partiyanın – «Müsavat»ın yaranmasına gətirib çıxardı. Bununla da Həsən bəy Zərdabinin «milli birlik» barədə proqramı həyata keçirilmiş oldu.

1905-ci il. Rus-Yapon müharibəsi Rusiyanın tam məğlubiyyəti ilə nəticələndi. Bu hadisə çar mütləqiyyətinin nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Cəmi iki günlük Tsusima döyüşləri nəticəsin-

---

[1] Elmira Muradəliyeva. Şimali Azərbaycanda millətin yaranışı haqqında, «Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi» konfransı. Xəzər Universitəsi. Bakı, 1995, s.121.

[2] H. Baykara. Azərbaycan istiqlal mücadiləsi tarixi. Bakı, 1992, s.126-127.

də Romanovların güvənci sayılan rus hərbi-dəniz donanması yapon gəmilərinin təzyiqinə davam gətirməyərək məhv olundu. Bununla Romanovlar sülaləsinin nüfuzuna ciddi zərbə vuruldu. Eyni zamanda ölkədəki siyasi və iqtisadi vəziyyət də son dərəcə gərginləşdi. İnqilablar, qırğınlar və talanlar dövrünə qədəm qoyuldu.

Bir tərəfdən bolşevik inqilabı, digər tərəfdən isə azsaylı xalqların milli oyanışı çar hökümətini təcili və «səmərəli» tədbirlər görməyə təlәsdirdi. Öncə yəhudi qırğınları və talanları təşkil olundu. Sonra növbə Azərbaycana çatdı. İlk qırğınlar Yelizavetpol quberniyasına daxil olan Qarabağ qəzasının mərkəzi – Şuşada başladı. Şuşadakı rus hərbi hissəsinin komandiri general Kalasçapov sərəncamında olan erməni əsilli əsgərlərə mülki paltar geyindirib, onları türklərə qarşı silahlı mübarizəyə qaldırdı. Ermənilərin istifadə etdikləri silahlar da rus alayına məxsus idi. Gəncə ictimaiyyətinin Şuşaya hərtərəfli yardım göstərməsi başda Qafqaz canişini Vorontsov-Daşkov olmaqla, çar hökumətini ciddi təşvişə saldı. Bunun qarşısını almaq üçün erməni-türk qarşıdurması Gəncədə də təşkil olundu. Beləliklə, qarşıdurmanın miqyası daha da genişləndi. Bakı başda olmaqla Azərbaycanın müxtəlif bölgələrində erməni-türk qırğını törədildi. Rus hərbçiləri gizlətmədən erməni tərəfini silahla təmin edirdi. Türklərin isə silahlanmaq imkanları son dərəcə məhdud idi. Belə bir şəraitdə Gəncəbasarda öz igidliyi ilə məşhur olan qaçaq Dəli Alı 2 min nəfərlik silahlı dəstə ilə Gəncəyə daxil oldu. Şəhərdəki mindən artıq silahlı gənc də Dəli Alının dəstəsi ilə birləşdi.[1]

Gəncə ziyalıları da döyüşən gənclərlə həmrəylik nümayiş etdirirdilər. Gəncədən seçilmiş İsmayıl bəy Ziyadxanoğlu Dövlət Duması tribunasından Rusiyanın bu siyasətini ifşa etdi: «Hörmətli millət vəkilləri, hər dəqiqə ölkədən qorxulu xəbərlər alıram... Cənablar, iki ildən bəri qan içində üzən ölkəmizdə cəsədlərin üstündən keçirik. Artıq səbrimiz tükənib. Biz anaların qucağından alınıb havaya atılan südəmər uşaqların havada ikən xəncərə keçirildiklərini görmüşük, biz hamilə qadınların qarnına saplanan xəncərlərin açdığı yaralardan uşaq əllərinin bayıra sallandığının şahidi olmuşuq...».[2] Vəziyyətin ciddiləşdiyini görən şəhərin rəsmi dairələri, başda Yelisavetpol qubernatoru olmaqla çıxış yolları tapmaq üçün şəhərin nüfuzlu adamlarına müraciət etdilər. Milli hərəkata şəhərin nüfuzlu şəxslərindən biri olan Ələkbər bəy Rəfibəyli başçılıq edirdi. Hərəkatın düşünən beyinləri arasında Ələkbər və Ələsgər Xasməmmədlilər, Həmid bəy və Nəsib bəy Usubbəylilər, Həsən bəy Ağaoğlu, Məhəmməd Pişnamazzadə, Mirzə Məhəmməd Axundzadə var idi. Məhz bu şəxsiyyətlər bir araya gələrək millətin təhqir edilmiş hüquqlarını müdafiə etmək, onun fiziki və mənəvi varlığını qorumaq və qabaqlayıcı tədbirlər görmək üçün gizli firqə yaratmaq qərarına gəlirlər. Bu «Difai» firqəsi idi. «Difai»nin meydana gəlməsi Gəncənin Azərbaycanda milli mücadilənin mərkəzinə çevrilməsi demək idi. Nağı bəy Şeyxzamanlı firqənin yaranma məqsədini öz xatirələrində belə açıqlayır: «...Zərurət qarşısında qurulan bu təşkilat insani münasibət göstərməyən, hörmətsizlik edən, erməni-azəri mücadiləsində ermənilərə yardım edən rus idarəçilərinə layiq olduqları cəzanı vermək üçün qurulmuşdur. Hər rus idarəçisinin etdiyi pislik yaxşıca araşdırıldıqdan sonra öldürülür və vəziyyət nəşr olu-

[1] N. Şeyxzamanlı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997, s.15.
[2] H. Baykara. Göstərilən əsər, s.130.

nan bir bəyannamə ilə xalqa elan edilirdi».[1]

«Difai»nin ilк qurbanı Gəncə qubernatorunun müşaviri Kiresçinsкi olmuşdur. N.Şeyxzamanlının yazdığına görə, ona Gəncədə türкlərdən heç кəs salam verməzdi. O özü etiraf edirdi кi, belə bir vəziyyətdə mən Gəncədə qala bilmərəm. «Qətlin ertəsi gününün gecəsi «Difai» firqəsinin möhürü ilə divarlara bəyannamələr yapışdırılmışdı».[2]

Heç bir yerdə qeydiyyatda olmayan və son dərəcə məxfi bir təşкilatın yalnız bircə möhürü var idi. Möhürün üstündə «Milli döyüş firqəsi» yazısı həкк olunmuşdu. Onun кimdə olduğu heç кimə bəlli deyildi, hətta firqəni idarə edənlərə də. Divarlara yapışdırılan bəyannamələrə həmin möhür həкк olunardı. Bu əfsanəvi möhürlə bağlı bir tarixi xatirə var: «Rus idarəsi ilə «Difai» mücadiləsi 1906-ci ildən 1909-cu ilin ortalarına qədər davam etmişdir. Xalqımız da, «Difai» firqəsi də əmin olmuşdular кi, artıq rus idarəçiləri hər vasitə ilə özlərini xalqımıza sevdirməyə çalışırdılar. Bu vaxt mən gizli təşкilatda çalışırdım. Yığıncaqlarımızın birində dostlarımızdan biri soruşdu: «Artıq «Difai» fəaliyyətini dayandırıb, möhür saxlanılır, yoxsa yox edilib?». Mirzə Məhəmməd dedi: «Onu yox etməriк. O möhür gələcəк Azərbaycan muzeyində saxlanılacaq». Beləliкlə, möhürün Mirzə Məhəmməd Axundzadədə olduğu anlaşıldı.»[3]

Bu gün Azərbaycan istiqlal mücadiləsi tarixinə onun dəyərli övladlarının adları qaytarılır. Bunlardan biri Mirzə Məhəmməd Axundzadə olmuşdur. Məhz bu şəxsiyyət «Difai» firqəsinin əsas yüкünü öz çiyinlərinə götürmüş oldu. «Difai»nin timsalında xalq öz milli varlığının müdafiəsinə qalxmışdı. Qafqaz canişini Yelisavetpol qubernatoruna ünVanladığı məкtublarda «Difai» probleminin tez bir zamanda aradan qaldırılmasını tələb edirdi. Maraqlıdır кi, «Difai» hərəкatı Qafqaz hüdudlarından кənara çıxmışdı və Rusiyanın türк xalqlarına qarşı ermənilərin vasitəsi ilə etdiyi qırğınlara ciddi maneə olmuşdur. Belə кi, 1906-cı ildə Qarsda «Difai»nin bir qolu açılır. Bundan məqsəd erməni кomitələrinə müqavimət göstərməк idi. T.Kuluкov yazır кi, cəmiyyətin liderləri Cahangiroğlu İbrahim, Həsən xan qardaşları, Səttar bəy Hacıağa idi.[4]

Qəsdən törədilmiş erməni-türк qırğınının qarşısı alınsa da, «Difai» öz fəaliyyətini davam etdirirdi. Milli qırğını qısa bir müddətdə imperiya siyasətinə qarşı mübarizəyə çevirməyi bacaran və bununla da Rusiya üçün ciddi problemlər yaradan Gəncə ziyalılarının qətiyyətli fəaliyyəti höкumətin xüsusi xidmət orqanlarını çox narahat edirdi. «Difai» üzvü və «Difai» möhürü barədə şeytançılıq edən hər bir кəsə 50 min rubl müкafat vəd verilirdi. Bu, o dövr üçün son dərəcə böyüк məbləğ idi. Yalnız 1908-ci ilin yayında «Difai»nin iкi üzvü – Mirzə Məhəmməd Axundzadə və Həmid bəy Usubbəyli həbs olunurlar və möhür Yelisavetpol candarm idarəsinin əlinə кeçir. Təşкilat üçün bu, son dərəcə təhlüкəli idi. Möhür vasitəsilə bütün təşкilatı üzə çıxarmaq, üzvlərini isə həbs etməк mümкün olacaqdı. Laкin «möhür əməliyyatında» M.M.Axundzadə mahir siyasətçi olduğunu təsdiqlədi və real təhlüкəni «Difai»dən uzaqlaşdıra bildi. İstintaq nəticəsində Mirzə Məhəmməd imperiya üçün «si-

---

[1] N. Şeyxzamanlı. Göstərilən əsər, s.16.
[2] Yenə orada, s.20.
[3] Yenə orada, s.21-22.
[4] T.Kuкulov. Axısкa türкlərinin tarixinə bir nəzər. Baкı, 1999, s.44.

yasi cəhətdən etibarsız» sayıldı və Gəncədən sürgün edildi.[1]

1917-ci il fevral inqilabından sonra Bakıda Ümumqafqaz, may ayında isə Moskvada keçirilən Ümumrusiya müsəlmanları qurultayında milli hərəkatda «islamçı» və «türkçü» proqramlara köklənən iki axın yarandı. Moskva qurultayında Məhəmməd Əmin Rəsulzadə əski «islam muxtariyyəti» istəyindən «milli muxtariyyətə» keçməyi təklif etdi – «öncə türk, sonra müsəlman». Moskva qurultayı 271 səsə qarşı 446 səslə Rusiyanın milli-coğrafi federal demokratik respublikasına çevrilməsi haqda qərar verdi. Bununla milli hərəkatımız yeni keyfiyyət dönəminə aşmış oldu.[2]

Gəncə də yeni mücadilə dövrünə qədəm qoydu. Bu tarixi şəraitdə «Difai» firqəsi öz mövcudluğunu bir daha nümayiş etdirdi. Belə ki, Gəncə şəhəri bələdiyyə məclisinə üzvlərin seçkiləri müzakirəsinə «Difai»dən də bir nümayəndə təklif edildi. Firqənin mövcudluğu haqqında məlumat Sankt-Peterburqa çatdırıldı. «Difai»nin üzvləri olan gənc vətənpərvərlər böyük qətiyyət və cəsarət nümayiş etdirdilər. Partiyanın köməyi ilə fevral inqilabından sonra yaranmış Gəncə Milli Komitəsi rus əsgərlərini şəhərdən dəmiryolu vasitəsi ilə çıxarırdı.

Mirzə Məhəmməd və onun bir çox silahdaşları Gəncə Milli Komitəsində və «Türk Ədəmi-Mərkəziyyət» partiyasında fəaliyyət göstərirdilər. Sonuncu, Gəncədə Nəsib bəy Usubbəyli tərəfindən yaradılmışdı və «Müsavat»la birləşməsi «Müsavat»ı çox gücləndirdi. Birləşmək ideyasını «Müsavat» partiyasına başçılıq edən M.Ə.Rəsulzadə təklif etmişdi. 1917-ci il iyunun 17-də Bakıda birləşmə qurultayı açıldı və birləşmiş partiya «Türk Ədəmi-Mərkəziyyət-Müsavat» adlandırıldı. Azərbaycanın siyasi həyatında bu birləşmə çox vacib və düşünülmüş bir addım idi. Oktyabrın 25-dən 29-dək partiyanın birinci qurultayı keçirildi. Qurultay Azərbaycana milli-ərazi muxtariyyəti verilməsi uğrunda partiyanın gələcək mübarizəsinin taktika və strategiyasını müəyyənləşdirdi. Bu qurultayda Azərbaycanın gələcək təhsil sisteminin yeni əsaslar üzərində qurulmasının ilk layihəsi, o cümlədən, mərkəzdə, yani Bakıda Dövlət Universitetinin təsis edilməsi, məhz, M.M.Axundzadə tərəfindən irəli sürülmüşdü.

Oktyabrın 22-də Bakı Sovetinə seçkilərdə birləşmiş partiya böyük üstünlük qazanaraq birinci mövqeyə çıxdı. Bu, onun seçdiyi yolun düzgünlüyünün göstəricisi idi. Lakin Rusiyada bolşevik çevrilişindən sonra Bakıda da bolşeviklər və daşnaklar hakimiyyəti ələ almaq üçün hərbi cəhətdən möhkəmlənmək yolunu tutdular. Bolşeviklər qırğın törətməklə Bakıda «Müsavat»ın sosial bazasını əzmək istəyirdilər. Əsas məqsəd isə Bakı quberniyasında qələbə çaldıqdan sonra bütün Azərbaycanı işğal etmək idi. Məhz, Azərbaycan Xalq Cumhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası düşmənlərin bu planlarını pozdu. 15 sentyabr 1918-ci il Bakı azad edildikdən sonra Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Mirzə Məhəmməd Axundzadə yeni yaradılmış hökumətdə maarif nazirinin müavini idi. Eyni zamanda, onun siyasi xadim kimi də nüfuzu son dərəcə yüksək idi. O, partiya işinin təşkilinə böyük əmək sərf etmişdi və bir çox məsələlər ətrafında narahatlıq keçirdiyindən öz iradla-

---

[1] Bu barədə bax: Nazim Rza İsrafiloğlu. Mirzə Məhəmməd Axundzadə. Bakı, 2006.

[2] Süleyman Əliyarlı. Azərbaycan milli hərəkatının ilkin dönəmi. Azərbaycanda ictimai-siyasi fikir.XX əsr, s.45.

rını bildirmişdi. Belə ki, Gəncədən, mərkəzi partiya aparatından çoxlarının Bakıya köçmələri nəticəsində yerli struktur bir qədər zəifləmişdi. Bunu nəzərə alaraq 1919-cu ilin fevralında Mərkəzi Komitə Mirzə Məhəmməd Axundzadə ilə Məhəmmədbağır Şeyxzamanovu Gəncə komitəsinin təkrar təşkilinə ezam etmişdi.

Azərbaycan üçün taleyüklü bir zamanda M.M.Axundzadə prinsipial mövqe ortaya qoymuşdu.

1920-ci il aprel çevrilişindən dərhal sonra bolşeviklər gözlənilən müqavimət ruhunu qırmaq üçün repressiyalara başladılar. Müqavimət hərəkatının ilk təcəssümü Gəncə üsyanı oldu. Üsyanın əsas zərbə qüvvəsini Azərbaycan ordusunun bölmələri təşkil edirdi. Ordu hissələrinin ətrafına Gəncə və ətraf kəndlərin sakinləri toplaşmışdı. Artıq mayın 26-da gəncəlilər şəhərin müsəlman hissəsinə tam nəzarət edirdilər. Lakin Gəncənin erməni hissəsini tutmaq cəhdi nəticə vermədi. Erməni əhalisi üsyanın başlanğıcından Qırmızı Ordunun tərəfini saxlayırdı. Mayın 26-da üsyana başçılıq etmək üçün generallar Cavad bəy Şıxlınski, Məmməd Mirzə Qacar, polkovnik Cahangir bəy Kazımbəyov və başqalarından ibarət Hərbi Şura yaratdılar. Uğursuzluqlar bolşevikləri Gəncə ətrafına əlavə hərbi qüvvələr cəmləməyə vadar etdi. Yalnız mayın 31-də üsyan yatırıldı. Bu üsyan Azərbaycandakı siyasi duruma böyük təsir göstərdi. Bundan sonra «xalq düşmənləri»nin axtarışına başlandı. Amansız repressiya dalğası M.M.Axundzadədən də kənar keçmədi. 1920-ci il oktyabrın 5-də Gəncə quberniya Fövqəladə Komissiyası tərəfindən Bakıya, Azərbaycan Fövqəladə Komissiyasına M.M.Axundzadənin dosyesi göndərildi. ««Müsavat» partiyasının rəyasət heyətinin üzvü, həbs olunmuş Mirzə Məhəmməd Axundov ittiham edilir və onunla birlikdə cinayət işi Bakıya göndərilir». Dindirilmə zamanı onun rus dilini mükəmməl bilməsi müstəntiqin verdiyi sualların mahiyyətini dərk etməkdə və məntiqi cavab verməkdə M.M.Axundzadə üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu kontekstdə imperiyanın təhsildə türklərə qarşı baş planı yada düşür. Bu planın mahiyyəti qaragüruhçu «pedaqoci fikir» nümayəndəsi N.İlminskinin sözlərində açıq ifadə olunmuşdu: «Təhsili elə qurmaq lazımdır ki, rusca bilik alan tatar tam bir heçlik olsun, rusca danışanda kəlməbaşı yanılıb qızarsın, rus dilində yazanda çoxlu səhvlər buraxsın, təkcə qubernatordan yox, ən siravi dəftərxana məmurundan da qorxsun».[1] M.M.Axundzadə nümunəsi bu baş planı heçə çıxardı.

Heç 50 yaşı haqlamamış Mirzə Məhəmməd Axundzadə bütünlüklə milli istiqlala köklənmiş həyatı ilə bu gün də Azərbaycanın siyasi tarixi üçün bir çox həqiqətləri təsdiqləyir. Millət uğrunda təmənnasız mübarizə son dərəcə mürəkkəb məsələdir və bu yolda fədakarlıq göstərmək, maddi və mənəvi məhrumiyyətlərdən, nə qədər ağır olsa da, uca durmaq heç də hər insana xas olan cəhət deyil.

---

[1] Vilayət Quliyev. Mirzə Kazımbəy. Bakı, 1987, s.101.

## К ИСТОРИИ ПАРТИИ «ДИФАИ» И ПРЕВРАЩЕНИЯ ГЯНДЖИ В ЦЕНТР НАЦИОНАЛЬНОГО ДВИЖЕНИЯ

**Э.Б.МУРАДАЛИЕВА**

### РЕЗЮМЕ

Политические и социальные потрясения, всколыхнувшие в начале XX века Российскую империю, мощным резонансом отозвались и ее колениях. Во всей полноте затронули они и Азербайджан.

Выражением роста национального самосознания и консолидации политических сил явилось создание в середине 1906 г. «национальной боевой партии»- «Дифаи». С этого времени Гянджа превращается в центр зарождающегося национального движения.

Решение о создании боеспособной национальной организации, могушей противостоять армянским террористам, было принято после, состоявшегося в Тифлисе с 20 февраля по 6 марта под председательством наместника Воронцова-Дашкова, армяно-азербайджанского примирительного съезда.

## THE PARTY “DIFAI” AND THE OVERTURN PANDJA TO THE CENTRE OF NATIONAL LIBERATION IN AZERBAIJAN

**E.B.MURADALIYEVA**

### SUMMARY

In the begining of XX century Azerbaijan was covered in blood. Russian goverment did terror and violence towards Muslims as well as supported and protected Armenians. It was that time when educated people in Ganja decided to establish a party to defend the insulted rights of the nation. That party was «Difai» party.